**Nəzakət Əhmədova**
**dissertant**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**E-mail:** neyzimi@gmail.com

# Müasir Qırğız modasında qədim geyim ənənələri

**Xülasə:** Məqalədə qırğız xalqının mədəniyyətinin mühüm bir hissəsi olan ənənəvi geyimlərin müasir modada interpretasiyasından bəhs olunur. Təhlilə son dövrdə Qırğızıstanda fəaliyyət göstərən görkəmli modelyerlər olan Tatyana Vorotnikova, Jumagül Sarıyeva, Dilbar Aşimbayeva, Zamira Mordoşeva və Mədinə Tapayevanın geyim kolleksiyaları cəlb olunmuşdur. Bildirilir ki, bu sənətkarlar etnik üslubda işlənmiş və texnoloji tikmədən istifadə edərək həll olunmuş, yalnız təbii, ekoloji cəhətdən təmiz və rahat parçalardan tikilən eksklüziv dizayn geyimini təqdim etməyə nail olurlar.

**Açar sözlər:** Qırğızıstan, moda, etnik, üslub, ənənə, modelyer, geyim.

Qırğızların ənənəvi kostyumları xalqın mədəniyyətinin mühüm bir hissəsidir. Onlar, köçəri maldarlıq iqtisadiyyatı ilə əlaqəli bütün tarixən qurulmuş həyat tərzi ilə izah edilən köçəri paltarlara xas xüsusiyyətləri ilə xarakterizə edilmişdir. İqlim şəraiti də geyimə böyük təsir göstərirdi, ona görə qırğızlarda pambıq əsasında isti bir paltar və ya vəhşi heyvanların xəzi üstünlük təşkil edirdi. Qırğızların paltarları köçəri həyat tərzinə uyğun idi və xüsusi biçimə malik idi. Onun kifayət qədər geniş, uzun çarpaz bağlanan ətəkləri qurşaq və ya dəri qayışla bağlanırdı. Geyimi incə keçədən, heyvan dərisindən, Fərqanə və Kaşqardan gətirilən cod yun parçadan, XIX əsrdə isə Rusiyadan gətirilən çit, mahud və başqa parçalardan tikirdilər. Bundan başqa Böyük İpək Yolunun üstündə duran Mərkəzi və Orta Asiyada yaşayan qırğız tayfaları beynəlxalq ticarətə cəlb edildiyinə görə, onlar qonşu xalqlarının parça məmulatlarından da istifadə edirdilər. İdxal olunan parçalardan əsasən varlı ailələr istifadə edə bilərdi.

Milli geyim onu gəzdirən adam haqqında çox məlumat verirdi. Parçanın növü, naxışları, bəzəkləri sahibinin ictimai mövqeyi haqda məlumat verirdi. Eyni konstruktiv və biçimə malik olan kasıb və varlı ailələrin geyim dəstləri yalnız parçanın keyfiyyəti və qadınların zinət əşyalarının miqdarı ilə fərqlənirdi.

Qırğız kişi geyiminin əsas növləri – keçədən olan baş geyimi “kalpak”, tülkü, quzu və maral dərisindən tikilən “malaxay” adlı xüsusi baş geyimi, tüklü və ya dələ xəzi ilə tərtib olunan məxmər və mahud parçadan tikilən “tebetey” adlı papaq, uzun kişi və qadın xələti olan “çapan”, onun üstündən geyilən keçə parçadan tikilən “çəpkən” və “kementay” növlü xələtlər, təntənəli mərasimlərdə

geyilən "içik" qız geyimi dəridən və keçədən tikilən çeşidli ayaqqabılar əsrlərlə dəyişilməmiş qalırdı.

Eyni ilə qırğız xanımının ənənəvi qadın geyimi uzun dövrlər istifadə olunan aşağıdakı elementlərdən – "koynok" adlı dondan, "beldemçi" adlı ətəkdən və bir neçə növdən ibarət baş örtüklərindən ibarət idi.

Yalnız XIX əsrin ikinci yarısından başlamış zəngin heyvandarlar hazır paltar almağa başladılar və bununla da, qırğızın ənənəvi elementlərinə qonşu xalqlardan götürülmüş yeni elementlər daxil olmağa başladı.

Yuxarıda qeyd edildiyi kimi, keçmişdə qırğız ustaları yaraşıqlı və praktik olan unikal geyim dəstlərini yaradırdılar. Geyimin xarakterinə kəskin hava şəraiti və köçəri həyat tərzi təsir edirdi. Əsasən keçə və yun parçadan tikilən bütün geyim dəstləri çox rahat və isti idilər. İmkanlı adamlar məxmər və ipəkdən olan paltarlar geyinir, əlvan rənglərə malik libaslar orijinal naxışlarla və gümüş pul sikkələri ilə bəzədilirdi.

Keçmişdə qırğızların üst qadın və kişi geyimləri çox oxşar idi. Məsələr, astarlı tikilən qolsuz jileti qadınlar donun üstündən geyinirdilər. Subay qızların geyimi evli qadınların geyimindən fərqlənirdi. Sosial vəziyyətdən və yaşayış yerindən asılı olmayaraq, bütün qadınlar başlarını örtmüş və uzun paltarlar geymişlər. Uzun ətəkli don islam dini ilə bağlı idi. Gen libasda təsərrüfat işlərini görmək rahat idi. Onun üstündən müxtəlif rəngli çəpkən və kalək adlı ağ pambır parçadan olan çox yüngül, uzunluğu 15 – 40 metrə çatan baş örtüyü taxardılar. Baş örtüyünün uzun şleyfi təkcə yaraşıq vermirdi. Ondan köç vaxtı körpələri bələmək üçün və ya kəfən kimi istifadə olunurdu. Bu baş geyimini ancaq ərdə olan qadınlar gəzdirirdi.

Keçmişdə demək olar ki, hər bir bəzəkli atribut həmail rolunu oynayırdı. Məsələn, uzun məxmər lentlərdən ibarət olan əşyalar və ya gümüş zəncirlərdən ibarət olan hörük bəzəkləri saçları tam örtürdü. Bundan başqa onlar başı bir qədər arxaya çəkərək qızın duruşuna bir qamət verirdi.

Qırğız qadınları əsasən gümüş, mərcan və firuzə gəzdirirdilər. Bu daşlar müalicəvi xüsusiyyətləri olan daşlar kimi dəyərləndirilirdi. Beləliklə, qadınlar həm öz gözəlliyini vurğulayır, həm də özlərini xəstəliklərdən qoruyurdular.

Bu kimi geyim dəstləri Qırğızıstan Dövlət Tarix muzeyində mühafizə olunur. Ötən əslərdə geyim qiymətli əşya sayılırdı, ona görə də ona böyük qayğı ilə yanaşılırdı və libaslar illərlə, bəzən əsrlərlə qorunub-saxlanılırdı.

Qədim qırğız geyim dəstləri təkcə muzeylərdə saxlanılmır. Qırğızıstanın görkəmli dizayner, rəssam-modelyerlərindən olan Tatyana Vorotnikova uzun illərdir ki, milli geyimlərin kolleksiyasını toplayır. Qırğız naxışlarının mahir bilicisi və sənətkarlığın qoruyucusu olan eksperimentçi-modelyer əski qırğız kostyumlarının, eləcə də qırğız tikmələrinin unikal qiymətsiz kolleksiyasını

toplaya bilmişdir. Onun rahat emalatxanası nadir qədim əşyaların əsl saxlanc yeridir.

T.Vorotnikova ilk dizayner olaraq milli qırğız geyimini sənət əsəri səviyyəsinə qaldıra bilmiş, qırğız geyimin qədim ənənələrini müasir şəhər həyatına uyğunlaşdıra bilmişdir. Ustad sənətkar öz modelləri üçün ənənəvi biçim həlli və əski ornamentdən istifadə edir. Modelyerin öz geyim modelləri üçün istifadə milli motiv çapan təşkil edir. Orta Asiya ölkələrinin bir çoxunda geniş yayılmış uzun ətəkli sırıqlı qış geyimi olan çapan, istedadlı modelyerin geyim nümunələrində tamamilə yeni görkəm alır. T.Vorotnikova çapanın sırıqlı fakturasını hazırladığı ətək, jaket, palto və donlarında geniş istifadə edir.

Yuxarıda qeyd edildiyi kimi, funksionallıq köçəri geyimlərinin əsas xüsusiyyətlərindən idi. Ərli qadınlar donun üstündən enli kəməri olan çarpaz bağlanan ətək geyinirdilər. Soyuq dağ havasından ancaq isti geyimlər xilas edirdi. Buna görə dərzi qadınlar libasa bel nahiyyəsində keçədən olan astar tikirdilər. Hal-hazırda bu kimi detallardan, (məsələn: başqa parçadan olan qoyma) bir çox dizaynerlər istifadə edir. Başqa bir maraqlı detal qatlamadır. Onu böyüməkdə olan şəxs üçün edirdilər.

Bu kimi ətək çox rahat surətdə çıxarılırdı. Əsasən soyuq və yağışlı havada geyinən ətəyi müvəqqəti dayanacaqlar zamanı yerə sərmək olurdu.

Qırğız geyimində çox zaman düymə əvəzinə pul sikkələrindən istifadə olunurdu. Onlar təkcə dekorun atributu kimi çıxış etmirdilər. Əvvəllər bu yolla ailə əmanəti qorunub saxlanılırdı. Sandıqlar tekstil məmulatları ilə dolu idi, bütün pullar və zinət əşyaları isə libaslara bərkidilirdi ki, köç zamanı heç nə itirilməsin. Düymələrlə bağlı daha bir qədim inac mövcud idi. Qadınlar düymələri tikən zaman hər birini uğur, sağlamlıq və xoşbəxt eviliyə ovsunlayırdılar. Düymələri “tumar” – həmail kimi tikirdilər.

Geyimin daha bir vacib detalını ornament təşkil edirdi. Hər bir naxışın öz mənası var idi. Məsələn, günəş dairəni, üçbucaq isə dağları simvolizə edirdi. Bədii tikmə vasitəsi ilə həm də mühüm məlumatı çatdırırdılar. Məsələn, “tuş kiyiz” xalçasından tikilən sapanın üzərində kəsilmiş kiçik detalların üzərində sahibin adı və doğulduğu il tikilirdi. Belə yazılar nəsildən-nəslə ötürülən bir növ özünəməxsus salnamə idi.

Əgər əvvəllər milli geyimlər yaşlı nəslin qarderobunda idisə, bu gün mənzərə köklü dərəcədə dəyişmişdir. Bu gün Qırğızıstan xalq kostyumu öz əhəmiyyətini itirmir və müasir moda dizaynerləri yeni yaradıcı əsərlərində bunu yeni bir şəkildə şərh edir ki, bu da son zamanlarda "etno stil"inin yaranmasına səbəb olmuşdur. Etnik üslub geyimdə bir trendə çevrilmişdir. Qırğız modelyerləri milli elementləri müasir geyimlərdə istifadə edirdilər, bununla da paytaxt modabazlarını heyrətə gətirirlər.

Bu sırada Qırğızıstanı Çin, Yaponiya, Avropa, Rusiya və digər ölkələrin podiumlarında layiqincə təmsil edən istedadlı geyim dizaynerinə Jumagül Sarıyevanı misal gətirmək olar. Dizayner Qırğızıstan çapanına unikal bir müasir üslubda həll edərək ona yeni nəfəs verə bilmişdir ki, nəticədə ənənəvi qırğız geyimi brend geyiminə çevrildi.

Jumagül Sarıyeva – Qırğızıstanın azsaylı nümayəndələrdəndir ki, çətinliklərə baxmayaraq, bu brendi canlanıraraq qırğızların milli geyimini həm ölkə daxilində, həm də xaricdə təbliğ etməyə çalışır. Bununla da o, etnik üslubda işlənmiş və texnoloji tikmədən istifadə edərək həll olunmuş, yalnız təbii, ekoloji cəhətdən təmiz və rahat parçalardan tikilən eksklüziv dizayn geyimini təqdim etməyə nail olur. J.Sarıyevanın təqdim etdiyi geyim nümunələrinin fərqləndirici xüsusiyyətlərini orijinal dekor və əl tikməsi təşkil edir. Onun kolleksiyalarında hər hansı bir nəsil üçün nəzərdə tutulmuş ənənə ilə müasirlik, milli və nəbati elementlər üzvi surətdə birləşirlər.

Qırğız modelyeri Dilbar Aşimbayeva Mərkəzi Asiya və dünya modasının məşhur simalarından biridir. Bir qədər Frunze şəhərinin ticarət-sənaye ayaqqabı birliyində işə başlayan Dilbar Moskvanın tekstil Akademiyasına daxil olur və bu təhsil ocağını fərqlənmə ilə bitirir. Dilbar Aşimbayevanın geyim nümunələri ilk dəfə olaraq 2004-cu ilin oktyabrında Rusiyanın podiumunda təqdim olunmuşdur. Aşimbayevanın dizayn işləri dəfələrlə Lyudmila Putina və Naina Yeltsinaya hədiyyə kimi verilmişdir. Onun geyim kolleksiyaları Avropa və Asiyanın milli koloritinin incə qarışığıdır. Onun "Dilbar" adlı moda evində işlənmiş geyim və aksessuarlar müxtəlif dünya ölkələrinin birinci xanımları, siyasət və biznes nümayəndələri, kino və televiziya ulduzları geyinirlər. Onu da qeyd etmək lazımdır ki, Qırğızıstan tekstil sənayesinin məhsulları Orta Asiyanın ən yaxşı məmulatları hesab olunurlar. Lakin Dilbar Aşimbayeva konveyer istehsal ilə deyil, sözün əsl mənasında ədədli mallara üstünlük verir. "Dilbar" moda evinin direktoru olan Dilbar Aşimbayeva Almaniyada, Avstriyada, Hollandiyada, Böyük Britaniyada keçirilən müxtəlif sərgilərin, geyim dəfilələrinin iştirakçısıdır.

Dilbar Aşimbayeva öz geyim kolleksyalarında əsas diqqəti milli ornamentin tətbiqinə verir. Onun geyimlərində, istər bu ziyafət libası olsun, və ya gündəlik geyilən paltar, milli naxışlar yeni nəfəs alır. O, ornamental dekor libasların yaxasını, boyun kəsiyini, ətəyi və s. hissələrini bəzəyir.

Tarixən qırğız qadını bel nahiyəsində yerləşən kəmərinin tərtibatına və kiçik çanağa xüsus diqqət yetirirdi, çünki burada qadının cinsiyyət orqanları yerləşirdi. Qədim ənənələri öz əsərlərində bərpa edən dizayner geyim nümunələrində istifadə etdiyi kəmərləri öz forması ilə qadın bətnini xatırladan və məhsuldarlıq simvolu olan "badam" naxışı ilə bəzəyir. Ustadın istifadə etdiyi

digər element zənginlik və rifah simvolu olan və qoç buynuzunu xatırladan "koçkor muuz"dur.

Əksər türk xalqlarının geyim dəstində mühüm yer tutan üçbucaq formalı həmail (qırğız dilində "tumar") onu gəzdirən şəxsi bəladan və pis qüvvələrdən qoruyan göz qaytaran kimi dəyərləndirir. Qırğızların "tuş kiiz" və "çını kaap" kimi geyim nümunələrini bəzəyən tumar Dilbar Aşimbayevanın bir çox geyim dəstlərinin kolleksiyalarında əsas dekorativ element kimi çıxır edir.

Ənənəvi qırğız geyimlərində naxışların, sapların və parçaların rəngləri də mühüm yer tuturdu. Təzad təşkil edən ağ və qara rənglər var-dövləti cəlb etmək üçün, həyatı, təbiət gücünü təmsil edən qırmızı rəng qan xəstəliklərindən, sarı isə daxili orqanlarının müxtəlif xəstəliklərindən qorumaq üçün istifadə olurdu. Bu əksi etiqadlara arxalanan dizayner öz geyim dəstlərində bunlardan geniş istifadə edirdi.

İstedadlı sənətkar qırğız milli geyimləri olan "çıptama", "beldemçi", "kep-takıya", "eleçek" kimi növlərindən ilhamlanaraq onların interpretasiyalarını müasir geyim dəstlərində tətbiq etməyə nail olmuşdur. Qadın qolsuz jileti olan "çıptama" paltarın üstündən geyinərdilər. Əsasən ev paltarı kimi geyilən bu isti və yüngül geyim növü bu gün ziyafətə çıxmaq üçün nəzərdə tutulan qarderobun bir hissəsinə çevrilmişdir. "Beldemçi" adlı qadın geyimini libasın üstündən bel aşağı hissədə gəzdirirdilər. İncə beli və gen balağı olan bu geyim nümunəsi zəngin ornamentlə və saçaqla bəzədilirdi. Beldemçini yazda, payızda, xüsusən də qışda geyinmək məqsədə uyğun hesab olunurdu. Hazırda qırğız etnomodasının ən populyar növü olan beldemçi, Dilbar Aşimbayevanın ən geniş istifadə etdiyi geyim elementidir.

Qırğız milli geyiminin maraqlı baş geyimlərini dairəvi formada olan qırmızı "kep-takiya" təşkil edir. Keçmişdə onu cavan qızlar taxırdılar. Ərə gedəndən sonra onun üstündən örtük və ya incə ağ rəngli parçadan olan dülbənd geyinərdilər. Bu gün bu baş geyimi müasir qırğız qızlarının üzərində tez-tez görmək olur. Buna müasir qırğız modelyerləri də rəvac verir.

Qırğızıstanda və onun xaricində şöhrət qazanmış stilist, vizajist, modelyer Zamira Moldoşeva məşhur şəxslərlə işləyir, moda evi və gözəllik salonunun sahibidir. Onun yaratdığı geyim kolleksiyalarında "kep-takiya"nın müasir təfsirinə rast gəlmək olur. Beləliklə, əminliklə demək olar ki, illər keçdikcə bu baş geyimi qırğızların həyatına qayıtmışdır.

Qırğızıstanın görkəmli modelyerlərndən biri də Mədinə Tapayevadır. Onun gündəlik geyim dəstləri kimi təqdim edilən müasir libasları ənənəvi geyim elementlərinin müasir təfsiridir. Geyim kolleksiyasına daxil olan etnik üslubda işlənmiş uzunboğaz çəkmələr xüsusi diqqətə layiqdir.

Məlumdur ki, ta XX əsrə qədər qırğızlar köçəri həyat tərzi yaşayırdılar ki, bu da onların ənənəvi libaslarının və ayaqqabılarının xarici görünüşündə öz

əksini tapmışdır. Maldarlıqla məşğul olan tayfalar paltarları və ayaqqabıları yundan və dəridən hazırlayırdılar. Məs., "içiq" adlı uzunboğaz çəkmə növü dabansız və yumşaq burunlu düzəldilirdi. Mədinə Tapayevanın müasir geyim dəstləri üçün işlədiyi uzunboğaz çəkmələr qırmızı "yufta" adlı materialdan biçilmiş, hündür taxta dabanlı və yuxarıya qatlanan burnu ilə fərqlənir. Çəkmələrin üzəri ənənəvi qırğız ornamentləri ilə tikmə üsulu ilə bəzədilmişdir. Həmin ornamental motivlər donun üstündən geyilən "beldemçi"ni bəzəyən naxışları təkrarlayır ki, bu da geyim dəstini ansambl şəklinə salır.

Etnik üslub tez-tez müasir modada təmiz şəkildə deyil, qarışıq şəkildə istifadə olunur. Eklektizmin təmayülü son vaxtlarda daha da güclənmiş və hər şeyin qarışığı, eklektikanı ifadə edən "fyujn" – "professional" termini ilə ifadə olunur.

Uyumsuzluğun birləşməsi yeni fikir axtarmaq üçün tükənməz bir fürsət tapan müasir stilistlərin sevdiyi bir üsul halına gəlmişdir.

Etnik üslub, romantik, klassik, idman üslubu ilə üzvi surətdə birləşdirilə bilər. Bu, müasir qırğız modelyerlərinin son illər işlədiyi geyim kolleksiyalarında müşahidə olunur. Etnik üslubda hazırlanan müxtəlif təyinatlı geyim dəstlərində modelyer-rəssamlar ənənəvi geyim elementlərinin uğurlu təfsirini yarada bilmişlər.

Moda artıq reseptləri diktə etmir, amma hər kəsi öz zövqü və nisbət hissi üzərində əsaslanaraq öz fərdi seçimlərini etməyə dəvət edir. XX əsrin sonu – XXI əsrin əvvəllərindəki sənət məlum olan sərhədləri genişləndirib, eklektika və stilizasiyanın tərkib hissəsi kimi üslubun yeni bir anlayışına yol açdı.

## Ədəbiyyat:

1. Горелик М.В. Традиционная одежда народов Средней Азии и Казахстана. М.: Наука, 1989.
2. Кутуева А.Э. Особенности кыргызского национального костюма
3. Муклина Р.Г. Костюмы народов Средней Азии. М.: Наука. 1979.
4. Мохова Е.И. Некоторые элементы кыргызского национального костюма. М.: Наука, 1982
5. Таланова Л.В. Этнический стиль в современном костюме // «Мода и дизайн: исторический опыт, новые технологии». Материалы Международной научной конференции. Санкт-Петербург. 2012, с.346 – 350.

## Тенденции традиционного костюма в современной Киргизской моде

**Резюме**

Статья посвящена современной интерпретации традиционной одежды, которая является важной частью культуры кыргызского народа.

К анализу привлечены коллекции одежды Татьяны Воротниковой, Жумагуль Сарыевой, Дильбар Ашимбаевой, Замиры Мордошевой и Мадины Тапаевой, которые являются известными модельерами в Кыргызстане. Отмечается, что эти мастера способны создать эксклюзивный дизайнерский наряд, разработанный исключительно в этническом стиле,экологически чистый, удобный, с использованием традиционных технологий.

**Ключевые слова:** Кыргызстан, мода, этничность, стиль, традиция, модельер, одежда.

## Traditions of ancient clothes in modern Kyrgyzian fashion

**Summary**

The article is devoted to the modern interpretation of traditional clothing, which is an important part of the culture of the Kyrgyz people. Collections of clothes by Tatiana Vorotnikova, Zhumagul Sariyeva, Dilbar Ashimbayeva, Zamira Mordosheva and Madina Tapaeva, who are famous fashion designers in Kyrgyzstan, are involved in the analysis. It is noted that these masters are able to present an exclusive designer outfit, designed exclusively in ethnic style, which is natural, environmentally friendly and comfortable, and using traditional technology.

**Key words:** Kyrgyzstan, fashion, ethnicity, style, tradition, fashion designer, clothing.